# Azərbaycan Cənubi Qafqazın lider dövlətidir

strateji vəzifə isə inkişaf etmiş dövlətlərin sırasına qoşulmaqdır.

İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda yaranan yeni reallıqlar Azərbaycanın həm də beynəlxalq siyasi, iqtisadi-ticari münasibətlərinin daha da şaxələnməsi üçün real zəmin yaradıb. Ümumiyyətlə, ölkəmizdə qonşu və digər dövlətlərlə həm ikitərəfli, həm də çoxtərəfli əsasda bərabər və qarşılıqlı əlaqələrin genişləndirilməsinə daim böyük önəm verilib. Prezident İlham Əliyevin milli mənafelərin qorunmasına xidmət edən xarici siyasət kursunun məqsədyönlü şəkildə həyata keçirilməsi bu əlaqələrin düzgün qurulmasına imkan yaradıb. Hazırda regionda əsas enerji təchizatçısı olan, Asiya və Avropa arasında körpü rolunu oynayan Azərbaycan bir sıra regional nəqliyyat layihələrinin təşəbbüskarı və icraçısıdır. Ölkəmiz Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrinin fəal beynəlxalq təşkilatlar tərəfindən də təqdir edilir. Beynəlxalq əməkdaşlığın inkişafına mühüm töhfə verən Azərbaycanın dünya birliyində nüfuzu, dövlətlərarası münasibətlərdə çəkisi artıb. Prezidentin həyata keçirdiyi xarici siyasətin taktiki və strateji özəllikləri Azərbaycana böyük uğurlar qazandırıb. Bütün bunlar isə göstərir ki, Azərbaycan regionda ən mükəmməl xarici siyasət kursuna malik müstəqil dövlətdir. Cənab İlham Əliyevin xarici siyasət təşəbbüsləri regional və qlobal reallıqları zərgər dəqiqliyi ilə nəzərə alır. Bu fikrin doğruluğunu İkinci Qarabağ müharibəsinin nəticələri də təsdiqlədi.

Müasir dövrdə beynəlxalq münasibətlər sistemində çox ciddi dəyişikliklər müşahidə olunur. Qloballaşma prosesinə paralel olaraq baş verən bu geostrateji dəyişikliklərin fonunda bir sıra regionlarda xaos, qarşıdurma kimi dağıdıcı proseslər cərəyan edir, bu isə müxtəlif ölkələri qeyri-sabitdi olaraq möhkəmləndirir. Bu kontekstdə regional güc mərkəzi olan Azərbaycanın təcrübəsi unikal, mütərəqqi nümunə kimi göstərilir. Cənubi Qafqaz regionunun lider dövləti olan, bölgədə mühüm və sabitləşdirici aktor kimi çıxış edən Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınıb və dünyada böyük etimad qazanıb.

Bu gün Azərbaycan müasir dövrün çağırışlarına və təhdidlərinə cavab verən, zamanın reallıqlarına uyğun dinamik inkişaf yolundadır. İnkişaf həm də təkmil idarəetmə deməkdir. Hər bir inkişaf etmiş dövlətin tarixi sübut edir ki, onun yüksəlişinə uyğun olaraq idarəetmə sistemi də daim yenilənib.

**(davamı 8-ci səhifədə)**

# Azərbaycan Cənubi Qafqazın lider dövlətidir

**(əvvəli 1-ci səhifədə)**

Dövlət başçımızın strateji təmkinə, milli maraqlara əsaslanan, müasir geosiyasi çağırışlara adekvat cavab verən strateji kursunun nəticəsində Azərbaycan hətta bir-biri ilə əks mövqedə dayanan qütblər, güc mərkəzləri tərəfindən tərəfdaş kimi qəbul edilir. Bu gün Bakı Avrasiya geosiyasətində diplomatik trafikin ən vacib və mühüm halqalarından biridir. Təsadüfi deyil ki, həm regionumuzda, həm də Avrasiyada sülh, sabitlik-təhlükəsizlik, əməkdaşlıq və inteqrasiya məsələləri Azərbaycan Prezidenti ilə müzakirə olunur. Üstəlik, Şərqi Avropada məlum hadisələrə görə mürəkkəb geosiyasi vəziyyətin yarandığı bir şəraitdə əsas diqqət yenə də Cənubi Qafqazın diplomatiya paytaxtı olan Bakıya yönəlib. Bütün bunlar Azərbaycanın regionun gündəliyini formalaşdıran əsas qüvvələrdən biri olduğunu göstərir, Bakının nüfuzunu, prestijini əks etdirir.

Cənab İlham Əliyevin düşünülmüş inkişaf konsepsiyası ilə Azərbaycan tam müstəqil siyasət aparır, bütün məsələlərlə bağlı öz mövqeyini çəkinmədən ifadə edir. Bu da Azərbaycanın siyasi və iqtisadi çəkisini getdikcə artırır. Cənubi Qafqazda həm siyasi, həm iqtisadi güc mərkəzi, həm də güclü orduya sahib qüdrətli ölkə olaraq Azərbaycan dünyada etibarlı tərəfdaş kimi əksər dövlətlərlə hərtərəfli əməkdaşlıq edir.

Azərbaycan həm də dünyanın əsas enerji ixtiracatçılarından biridir. Avrasiyanın nəqliyyat mərkəzlərindən birinə çevrilən ölkəmiz həm də Şimaldan-Cənuba və Şərqdən-Qərbə yüklərin daşınmasında mühüm nəqliyyat qovşağı kimi tanınır.

Tezliklə açılıb istifadəyə veriləcək Zəngəzur dəhlizi isə Azərbaycan iqtisadiyyatına əlavə dividendlər gətirəcək. Bu dəhlizlə türk dünyasını birləşdirəcək ölkəmiz Asiyadan Avropaya daşınan yüklərin ən səmərəli, etibarlı tranzit mərkəzinə çevriləcək. Artıq dəhlizin hava məkanından istifadə edilir. İndi əsas diqqət quru - yəni, avtomobil və dəmir yollarının çəkilməsinə yönəlib. Azərbaycan bu prosesdə üzərinə düşən öhdəliyi sürətlə həyata keçirir, regionda sabitləşdirici aktor kimi fəaliyyət göstərməklə bölgədə və beynəlxalq səviyyədə əməkdaşlığa, təhlükəsizliyə mühüm töhfələr verir. Buna görə də, ölkəmiz hazırda regional güc mərkəzi kimi sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi hesab edilir.

Müasir dövrdə qloballaşma və informasiya cəmiyyəti quruculuğu fonunda hər bir ölkənin qarşısında bir sıra strateji vəzifə və tələblər durur. İnkişafın strateji məqsədi kimi ayrı-ayrı sahələrin paralel tərəqqisi və XXI əsrin çağırışlarına adekvat cavab verməsi böyük əhəmiyyətə malikdir. Məhz buna görə də, milli dövlətlərin inkişaf konsepsiyasında milli tərəqqini təmin edən əsas faktor kimi strateji əhəmiyyətli sahələrə xüsusi diqqət yetirilir.

Azərbaycan konstruktiv, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan, regional və qlobal miqyasda sabitliyə xidmət edən siyasi xətt yürüdür. Belə olan halda Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətləri beynəlxalq birliyin aktorları olan milli dövlətlər üçün strateji əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı adlandırırlar. Aparıcı dövlətlər ölkəmizin Cənubi Qafqaz və Xəzər dənizi regionunda əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu bəyan edirlər.

Özünün bölgədəki liderliyini qoruyub saxlamaq istəyən Azərbaycanın mövqeyi söylənənləri əks etdirir. Bu günlərdə Nizami Gəncəvi Mərkəzində keçirilən "Qlobal dünya nizamına təhdidlər" mövzusunda növbəti Qlobal Bakı Forumunda Prezident İlham Əliyev deyib: "...Nə üçün biz sülhü seçdik? Çünki biz Cənubi Qafqazda sabit, dayanıqlı inkişafı görmək istəyirik... İndi sülh, əməkdaşlıq yaratmaq vaxtıdır və Azərbaycan bunun üzərində çalışır...".

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

Respublika .- 2022.- 22 iyun.- S.8.